**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜLKİ PROSESDƏ NÜMAYƏNDƏLİK İNSTİTUTU

İxtisas: 5615.01 – "Mülki proses"

Elm sahəsi: Hüquq

İddiaçı: **Hüseyn Vilayət oğlu Əsgərov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2024**

Dissertasiya Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "Mülki proses və kommersiya hüququ" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbərlər: hüquq elmləri doktoru, professor
**Aleksandr Alexandroviç Merejko**

hüquq elmləri doktoru
**Şəhriyar İbrahim oğlu Əliyev**

Rəsmi opponentlər: hüquq elmləri doktoru
**Volodimir İvanoviç Korol**

hüquq elmləri doktoru
**Zaur Əlirza oğlu Məmmədov**

hüquq üzrə fəlsəfə doktoru
**Səbinə Həmid qızı Əzizova**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 14 sentyabr 2023-cü il tarixli 3-50/3-1-1-176/2023 saylı əmri əsasında Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən BFD 2.44 Birdəfəlik Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: hüquq elmləri doktoru, dosent

________________ **Turqay İmamqulu oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: hüquq üzrə fəlsəfə doktoru, dosent

________________ **Əlizadə Qurbanəli oğlu Məmmədov**

Elmi seminarın sədri: hüquq elmləri doktoru, professor

________________ **Məhəbbət Dəyirman qızı Dəmirçiyeva**

BAKI DÖVLƏT UNİVERSİTETİ
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
"22" 01 2024

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə iqtisadiyyatın intensiv inkişafı, ticarət əlaqələrinin genişlənməsi müsbət haldır. Lakin bu proseslər müxtəlif problemlərin meydana çıxmasına gətirib çıxarır. Mülki və iqtisadi sferada meydana çıxan belə problemlərin həllində effektiv hüquqi mexanizmlərin işlənib hazırlanması və tətbiqi mühüm əhəmiyyət kəsb edən məsələdir.

Hər bir sivil, demokratik dövlətdə olduğu kimi Respublikamızda da insan və vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi vacib məsələdir. Müasir şəraitdə bu məsələnin həlli insan hüquqlarını qoruyan milli qanunvericiliyin və hüquq tətbiqi təcrübəsinin təkmilləşməsi işləri aparılmadan mümkün deyil. Məhkəmələrdə mülki mübahisələrə baxarkən hüquqi və fiziki şəxslərin hüquq və maraqlarının müdafiəsində həlledici mexanizm olan nümayəndəlik institutunun təkmilləşdirilməsi həm ümumilikdə ədalət mühakiməsinin effektiv realizəsinə, həmçinin insan hüquq və azadlıqlarının müdafiəsinə əhəmiyyətli səmərə verməsi baxımından həlledici və aktual məsələdir.

Mülki prosesdə prosessual nümayəndəliyin problemlərinin tədqiqi mülki prosessual hüquq elmində yeni mövzu deyil. Bu məsələyə bir çox görkəmli alimlərin əsərləri həsr edilmişdir. Buna baxmayaraq, mülki prosesdə nümayəndəlik institutu, onun əsas anlayışları, müxtəlif hüquq sistemlərində yeri, başqa hüquqi hadisələrlə nisbəti, müasir dövrdə bu fəaliyyətin realizəsi ilə bağlı meydana çıxan nəzəri və praktiki problemlər yetərli şəkildə araşdırılmamışdır.

Dissertasiya tədqiqatının mövzusunun aktuallığı mülki prosessual hüquq elmində və məhkəmə praktikasında nümayəndəlik institutunun fəaliyyəti zamanı yaranan bir sıra aktual məsələlərin tədqiqinə vahid yanaşmanın olmaması ilə şərtlənir. Azərbaycan Respublikasının (AR) qüvvədə olan mülki prosessual

qanunvericiliyində mülki işlər üzrə məhkəmə icraatında prosessual nümayəndəliyin əhəmiyyətli aspektlərinin həlli aydın şəkildə tənzimlənməmiş, bu istiqamətdə kifayət qədər effektiv mexanizmlər yaradılmamışdır. Bu mövzu üzrə hazırda mövcud olan nəzəri tədqiqatlar, yalnız məhkəmə nümayəndəliyinin bəzi, ayrı-ayrı aspektlərini işıqlandırır, lakin faktiki olaraq mülki prosesdə nümayəndəlik institutunun real problemlərinin araşdırılması və həll variantlarının təklifinə dair elmi iş yoxdur.

Bütövlükdə, nümayəndəlik institutunun çoxəsrlik tarixi mülki prosesdə nümayəndəliyin geniş və hərtərəfli tədqiqat tələb edən sfera olmasını göstərir, həmçinin mülki işlərə məhkəmələrdə baxılması zamanı nümayəndənin yerinin təyininə prinsipial yanaşmaları özündə saxlayır. Buna görə də, dissertasiyada xüsusi diqqət məhkəmə nümayəndəliyinin tarixinə, anlayışına müxtəlif hüquq sistemlərinə malik ölkələrdə bu institutun ardıcıl inkişafına ayrılır.

Məşhur ingilis hüquq alimi, Oksford Universitetinin mülki proses üzrə professoru Adrian A.S.Zuckerman hesab edir ki, ümumi hüquq sistemli ölkələrdən fərqli olaraq, kontinental hüquq sistemində mülki prosesdə nümayəndənin iştirakı arzuolunandır. Bunun əsas səbəbi mülki prosesin çəkişmə prinsipi əsasında aparılması və məhkəməyə bu prosesdə tam neytral mövqeyin tutulması imkanın verilməsi ilə bağlıdır[1].

Nümayəndəlik institutu praktiki olaraq hüququn bütün sahələrində mövcuddur. Mülki prosesdə nümayəndəlik institutu fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni maraqlarının məhkəmədə müdafiəsinin vacib konstitusion təminatıdır. Hüququn bu institutu ümumi anlamda bir şəxsin digər şəxsin adından, onun maraqları naminə, onun tapşırığı ilə həmin şəxsə qanunla verilən səlahiyyətlər çərçivəsində prosessual hərəkətləri icra etdiyi, eyni zamanda təmsil

[1] Zuckerman, A. No Justice Without Lawyers -The Myth of an Inquisitorial Solution // – Oxford: Oxford Legal Studies Research Paper, – 2014. N 66, – p. 355-374.

olunan şəxsə münasibətdə müəyyən hüquq və vəzifələr yaradan hüquq münasibətidir.

Mülki hüquq sferasında nüfuzlu mütəxəssislərdən hesab edilən professor Rik Verhagen mülki prosesdə nümayəndənin statusu ilə bağlı məsələdə onun səlahiyyətinin yaranması meyarını əsas götürür. Məhz bu səbəbdən nümayəndəlik qanuni (normativ hüquqi akt əsasında yaranır) və könüllü (əqd və ya etibarnamə əsasında yaranır) ola bilir[2].

Xarici ölkələrin alimləri ilə yanaşı, mülki prosesdə nümayəndəlik institutu ilə bağlı yerli müəlliflərin də maraqlı fikirlər var. Bu sahədə tədqiqatlar aparan M.D.Dəmirçiyeva mülki prosesdə nümayəndəlik institutunun inkişafında peşəkarlıq meyarını önə çəkir. Müəllif qeyd edir ki, hüquq və maraqların məhkəmə müdafiəsinə görə müraciət imkanlarının bu gün xeyli genişlənməsinə baxmayaraq, prosessual incəliklə tanış olmayan tərəfə öz xeyrinə məhkəmə qətnaməsi əldə etmək elə də asan deyil. Mülki prosesin prinsipi kimi çəkişmə prinsipinin inkişafı ona gətirib çıxarır ki, peşəkar nümayəndəyə malik olmayan tərəf əks tərəflə qeyri-bərabər vəziyyətdə olur[3].

Oxşar fikirlərə Ə.İ.Əliyevin əsərlərində də rast gəlinir. Müəllif nümayəndəlik institutunu həm beynəlxalq, həm də dövlətdaxili kontekstdə təhlil edərək qeyd edir ki, ədalət mühakiməsinin əsas ünsürlərindən biri kimi müdafiəçinin köməyindən istifadə etmək hüququnun başlıca məqsədi tərəflərin real (həqiqi) bərabərliyinə təminat verməkdir[4]. Göründüyü kimi, müəllif çəkişmə prinsipinin realizəsini əsas götürmüşdür.

[2] Verhagen, H.L. Agency in Private International Law, The Hague Convention on the Law Applicable to Agency / H.L.Verhagen. – Dordrecht: Martinus Nijhoff Publishers, – 1995, – p. 6.
[3] Dəmirçiyeva, M.D. Mülki məhkəmə icraatı. Ayrı-ayrı kateqoriya mülki işlərə baxılmasının prosessual xüsusiyyətləri: Dərs vəsaiti / M.D.Dəmirçiyeva. – Bakı: Qanun, – 2008, – s. 173.
[4] Əliyev, Ə.İ. İnsan hüquqları. Dərslik / Ə.İ.Əliyev. – Bakı: Hüquq Ədəbiyyatı Nəşriyyatı, – 2013, – s. 415.

Ş.İ.Əliyev qeyd edir ki, hüquq münasibətlərinin subyektlərinin hüquq və qanuni maraqlarının müdafiəsinin təmin olunması hüquqi dövlətin əsas məqsəd və vəzifələrindən birini təşkil edir. Bu məqsəd və vəzifənin həyata keçirilməsində mühüm rol nümayəndəlik institutunun bir qolu olan vəkilliyin üzərinə düşür[5].

Mülki prosessual nümayəndəliyin problemlərinin tədqiqatı qismən də olsa mülki prosessual hüquq elmi çərçivəsindən kənara çıxır, çünki, nümayəndəlik institutu yalnız mülki prosesin yox, digər hüquq sahələrinin də spesifik xüsusiyyətlərini özündə əks etdirir. Bir vacib məqamı qeyd edək ki, prosessual nümayəndəlik həm publik-hüquqi, həm də xüsusi-hüquqi normaları birləşdirən kompleks hüquq institut olan mürəkkəb hüquqi kateqoriyadır. Bundan başqa, bir halda ki, prosessual nümayəndə eyni zamanda müxtəlif hüquq sahələri (həm prosessual, həm də maddi) tərəfindən nizama salınan bir çox hüquqi münasibətlərlə bağlı nümayəndəlik funksiyalarını icra edir, deməli prosessual nümayəndəliyin problemləri həm maddi, həm də prosessual xarakterli ola bilər. Bu səbəbdən mülki prosesdə nümayəndənin fəaliyyəti ilə bağlı problemlər kompleks xarakterə malik olduğundan, həmin problemlərin həllinə də kompleks yanaşmaq, yəni maddi və prosessual hüquq normalarının vəhdəti şəklində yanaşaraq müvafiq həll variantlarını axtarmaq məqsədəuyğundur. Bu səbəbdən seçilmiş tədqiqat mövzusu xüsusi aktuallıq kəsb edir.

Mülki prosesdə nümayəndəlik institutunun fəaliyyətinin aktual nəzəri və praktiki problemlərinə diqqət yetirərkən növbəti problemləri xüsusilə qeyd etmək lazımdır: prosessual qanunvericilikdə vəkillərdən başqa, digər nümayəndələrin (yaxın qohum, hüquqi şəxsin nümayəndəsi) peşəkarlıq və ixtisas tələblərinə dair müddəaların olmaması; nümayəndələrin prosessual hüquqlardan sui-istifadə,

---

[5] Əliyev, Ş.İ. Vəkillik hüququ. Dərs vəsaiti / Ş.İ.Əliyev. – Bakı: Azərbaycan Hüquq İslahatları Mərkəzi, – 2012, – s. 8.

səhlənkarlıqla bağlı yol verdikləri səhvlərə görə məsuliyyətin müəyyən edilməsi ilə bağlı konkret normaların yoxluğu və s.

Dissertasiyanın aktuallığını göstərən növbəti amil onunla bağlıdır ki, hər kəsin məhkəmə müdafiəsi hüququnu (md. 60) və yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnu (md. 61) təsbit edən AR Konstitusiyasının tələbləri mülki prosesdə əsas etibarilə nümayəndələrin fəaliyyətində öz təcəssümünü tapır, başqa sözlə desək bu konstitusion hüquqlar nümayəndəlik institutu vasitəsilə realizə olunur.

Bir qədər də geniş desək, hər bir hüquqi dövlətin əsas məqsədi insan və vətəndaş hüquqlarını və azadlıqlarını təmin etməkdir. Bu məqsəd AR Konstitusiyasında (md. 12) təsbit olunur. Lakin müvafiq hüquqi təminat mexanizmi olmadan insan hüquq və azadlıqlarının Konstitusiyada təsbit edilməsi əhəmiyyətsizdir. Məhz bu baxımdan AR Konstitusiyasında insan hüquq və azadlıqlarının hüquqi təminatı da nəzərdə tutulur. Belə ki, Azərbaycan dövləti hər kəsin Konstitusiyada təsbit olunan hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir (md. 26). Qeyd olunan müdafiənin hüquqi təminatlarından biri də nümayəndəlik institutunun effektiv fəaliyyət göstərməsidir. Məhz bu baxımdan mülki prosesdə nümayəndəlik institutunun təkmilləşdirilməsi ilə bağlı problemləri nəzəri baxımdan araşdırmaq olduqca zəruri və aktualdır.

Məsələnin digər bir tərəfi də ondadır ki, hüququn ümumi prinsiplərindən olan və ədalət mühakiməsinin əsasını təşkil edən əsaslardan sayılan çəkişmə prinsipinin daha effektiv və real şəkildə realizəsi üçün müəyyənedici amil məhz nümayəndəlikdir. Sirr deyil ki, istənilən cəmiyyətdə, o cümlədən Respublikamızda əhalinin bütün təbəqələri arasında hüquqi savadlılıq, öz haqqını tələb etmək, pozulmuş hüquqlarını bərpa etmək bacarığı eyni səviyyədə deyil. Hüquqi problemlərlə qarşılaşan zaman insanlar nümayəndələr vasitəsilə təmsil olunmasına üstünlük verir. Eyni zamanda, məhkəmə prosesində hüquq normalarının düzgün şəkildə tətbiqi, ədalətə nail

olmaqda nümayəndələrin iştirakı vacibdir. Bütün bu məsələlərin ətraflı, nəzəri araşdırmaya ehtiyacı var.

31 oktyabr 2017-ci il tarixli AR-in Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Qanunun qəbul edilməsinə qədər Respublikamızda istənilən şəxs nümayəndə qismində məhkəmədə çıxış edə bilirdi. Bu hal kifayət qədər maddi və prosessual problemlərə yol açmışdır. Adıçəkilən Qanunun qəbul edilməsindən sonra problemlərin sayı azalmışdır. Lakin mülki prosesdə nümayəndəlik institutunun geniş əhatə dairəsinin olmasını nəzərə alaraq, qanunvericilikdə müəyyən dəyişikliklərin aparılmasına zərurət var.

Mülki prosesdə nümayəndəlik institutunun nəzəri və praktiki tərəflərinin hərtərəfli öyrənilməsi, onun mövcud problemlərinin həlli zərurəti, bu sferada qanunvericiliyin təkmilləşdirilməsi və məhkəmə təcrübəsində oturuşmuş qayda və ənənələrin dəyişdirilməsi seçilmiş tədqiqat mövzusunun aktuallığını göstərir.

Dissertant uzun müddət nəzəri tədqiqatlar və müxtəlif aspektlərdə məhkəmə nümayəndəsinin iştirakıyla bağlı işlərin baxılması üzrə məhkəmə təcrübəsinin materiallarını öyrənib və bu sferada ümumiləşdirmə aparmışdır. Belə fəaliyyət təqdim olunan dissertasiya mövzusunun tədqiqatına daha da yaxınlaşmağa, qüvvədə olan prosessual qanunvericiliyə və hüquq tətbiqi təcrübəsinə zəruri dəyişikliklərin edilməsinə imkan verir.

Nəhayət, mövzuya olan marağı göstərən amillərdən biri də odur ki, mülki prosesdə nümayəndənin fəaliyyəti nə qədər effektiv olarsa, insanların hüquq düşüncəsində, insanların özünü hüquqi cəhətdən müdafiə qabiliyyətində, eyni zamanda göstərilən hüquqi xidmətin peşəkarlıq səviyyəsində müsbətə doğru ciddi irəliləyişlər əldə etmək olar. Bu səbəbdən hesab edirik ki, demokratik, hüquqi dövlət quruculuğu yolunu seçmiş AR-də nümayəndəlik institutunun imkanlarından geniş istifadə üçün zəruri elmi-nəzəri baza yaradılmalıdır.

Tədqiqat işində M.A.Mövsümov, M.D.Dəmirçiyeva, S.S.Allahverdiyev, Ş.İ.Əliyev, T.İ.Hüseynov, B.H.Əsədov, Ə.H.Hüseynov, B.C.Kərimli, Ə.İ.Əliyev, Ə.İ.Sadıqov, Ə.Q.Məmmədov, L.H.Hüseynov, V.İbayev, R.Kazımov; əcnəbi alimlərdən, ilk növbədə, rus ailmlərindən S.A.Alekseyev, E.V.Vaskovskiy, M.A.Vikut, A.X.Qolmsten, A.S.Qordon, M.A.Qurviç, V.N.İvakin, İ.M.İlyinskaya, K.İ.Komissarov, L.F.Lesnitskaya, K.İ.Malışev, E.L.Nevzqodina, B.İ.Novitskiy, İ.S.Pereterskiy, Y.K.Osipov, S.V.Polenin, İV.Reşetnikova, V.A.Ryazanovskiy, V.Ryazentsev, E.Saloqubova, V.N.Şeqlov, K.S. Yudelson, T.Yabloçkov, V.V.Yarkov; Avropa və Amerikan alimlərindən A.A.Merejko, Abraham H. Julian, Born Gary, A.Braun, D.Kempbell, M.Kappelletti, J.Qordli, Keare J.Korrin, Karpi Federico, M.A.Lupoi, A.Kassese, M.Dillon, L.Qarland, S.Rays, Taruffo Mişele, H.L.Verhaqen, R.Verkerk, R.Zimmermann, Zukerman Adrian, K.Tsvayqert və digər alimlərin əsərlərindən istifadə olunmuşdur.

Mülki prosesdə nümayəndəlik institutu ilə bağlı məsələ AR hüquq elmində ayrıca, dissertasiya səviyyəsində tədqiq olunmamışdır. Bununla belə, ayrı-ayrı müəlliflərin elmi tədqiqat işlərində mülki prosessual hüququn müxtəlif sahələri tədqiq edilərkən ümumi və səthi şəkildə nümayəndəlik institutu ilə bağlı problemlərə də toxunulmuşdur. Belə ki, M.D.Dəmirçiyevanın "Mülki prosessual hüquq. Tədris-metodik göstəriş" (Bakı, 2005) adlı əsərində; "Mülki məhkəmə icraatı. Ayrı-ayrı kateqoriya mülki işlərə baxılmasının prosessual xüsusiyyətləri" (Bakı, 2008) adlı dərs vəsaitində; B.H.Əsədovun "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin Kommentariyası" (Bakı, 2002) adlı kitabında; M.A.Mövsümovun "Azərbaycan və Rusiya mülki prosessual hüququ: sistemli və müqayisəli hüquqi təhlil təcrübəsi" (Sankt-Peterburq, 2005) əsərində; Ə.H.Hüseynov və B.C.Kərimlinin "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin Kommentariyası" (Bakı, 2010) adlı kitabında; M.Mövsümovun "Mülki Prosessual hüquq" (Bakı, 2011) adlı dərsliyində mülki prosesdə

nümayəndəlik institut ilə bağlı yalnız ümumi məsələlər təhlil edilmiş, konkret nəzəri və ya praktiki problemlərə toxunulmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini mülki məhkəmə icraatında nümayəndəlik fəaliyyəti çərçivəsində meydana çıxan ictimai münasibətlər təşkil edir. AR-də mülki prosessual nümayəndəliyin aktual nəzəri və praktiki problemlərinin həllinə xüsusi diqqət ayrılır. Tədqiqatın predmetini mülki prosesdə nümayəndəlik sferasında qüvvədə olan beynəlxalq və dövlətdaxili hüquq normaları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi mülki prosesdə nümayəndəlik institutunun effektinin artırılması məqsədilə onun mövcud nəzəri və praktiki problemlərini, onların həlli variantlarını və ümumilikdə bu institutunun müxtəlif elementlərinin kompleks tədqiqini aparmaqdır. Aparılmış analiz nəticəsində konkret mexanimzlərin fəaliyyətini, qanunvericilikdə əlavə və dəyişikliklərin həyata keçirilməsi imkanlarını təklif etməkdir.

Qeyd edilən məqsədlərə nail olmaq üçün tədqiqatda aşağıdakı **vəzifələr** müəyyən edilmişdir:

- Prosessual nümayəndəliyin tarixi inkişafını təhlil etmək, həmçinin müxtəlif hüquq sistemlərində bu institutun tutduğu yerlə bağlı məsələləri tədqiq etmək;
- Müxtəlif dövlətlərin hüquq sistemi çərçivəsində tədqiq edilən nümayəndəlik institutunun yaranması və inkişafı prosesinə baxmaq;
- Cəmiyyətin müasir inkişaf mərhələsində məhkəmə nümayəndəliyi institutunun inkişafına, eyni zamanda məhdudlaşdırılmasına şərait yaradan meyarları üzə çıxarmaq;
- Mülki prosesdə nümayəndəlik institutunun anlayışı ilə bağlı ədəbiyyatlarda mövcud olan fikir müxtəlifliklərini müqayisəli şəkildə təhlil etmək;
- Subyekti prosessual nümayəndə olan müxtəlif hüquq münasibətlərini müəyyən etmək;

- Hüququn kompleks sahələrarası institutu kimi prosessual nümayəndəliyin nəzəri-hüquqi modelini hazırlamaq;
- Mülki prosesdə hüquqi yardım göstərilməsinin nümayəndəlik institutunun əsas vəzifəsi olmasını əsaslandırmaq;
- Yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsinin təkmilləşdirilməsi üzrə əsas istiqamətlərin müəyyən edilməsi;
- Mülki prosesdə nümayəndəlik institutunun müxtəlif əlamətlərə görə təsnifatının aparılması və növlərə ayrılması;
- Mülki prosesdə vəkilin fəaliyyətinin problemli tərəflərinin üzə çıxarılması;
- Qanuni nümayəndələrin mülki prosesdə iştirakı ilə bağlı meydana çıxan problemlərin işıqlandırılması;
- AR mülki prosessual qanunvericiliyi sistemində nümayəndəlik institutunun yerini müəyyən etmək;
- AR-də nümayəndəlik institutunun formalaşması tarixinə və hazırkı vəziyyətinə müqayisəli hüquqi yanaşma;
- AR-in mülki prosesində nümayəndəlik institutunun maddi və prosessual hüquqi tərəflərini üzə çıxarmaqla hazırkı nəzəri problemlərini müəyyənləşdirmək;
- AR-in mülki prosesində nümayəndəlik institutunun realizəsi zamanı meydana çıxan praktiki problemlərin həlli yollarını müəyyən etmək.

**Tədqiqat metodları.** Dissertasiyanın hazırlanması zamanı müxtəlif metodlardan istifadə olunmuşdur. Bütövlükdə tədqiqat idrakın dialektik-materialist üsulları ilə aparılmışdır ki, bu da hüquq normalarını qarşılıqlı əlaqə və ziddiyyətləri təhlil etməyə imkan verir. Tədqiqatın tamlığını təmin etmək üçün həm ümumelmi (tarixi, formal-məntiqi, struktur-funksional, sistemli və s.), həm də ümumi məntiqi metodlar (analiz, sintez, induksiya və deduksiya, ümumiləşdirmə, analogiya, abstraksiya və s) istifadə olunmuşdur.

**Müdafiəyə aşağıdakı əsas yeni elmi müddəalar təqdim edilir**:

1. Mülki prosesi nizama salan qanunvericilik sistemi adətən beynəlxalq və milli hüquqi aktlardan təşkil olunur. Respublikamıza münasibətdə də müvafiq qayda qüvvədədir. Məsələ burasındadır ki, AR-də mülki prosesi tənzim edən qanunvericilik sistemi milli qanunvericilikdən və bu qanunvericiliyi təkmilləşdirən beynəlxalq hüquqi normalardan ibarətdir. Xüsusilə vurğulamaq lazımdır ki, bu qanunvericilik sisteminin formalaşmasında beynəlxalq hüquqi aktlar mühüm rol oynamışdır. Mülki prosessual hüquq xüsusi (mülki) hüquqların realizə forması olması səbəbindən insan hüquqlarının müdafiəsi baxımından məhkəmələrdə mülki işlərə baxılması beynəlxalq və milli hüququn qarşılıqlı əlaqəsi fonunda həyata keçirilir. Bu zaman AR-in ümumi qaydasının (public order) qorunması şərti ilə üstünlük beynəlxalq hüququn normalarına verilməlidir.

2. Bəzən hüquq ədəbiyyatlarında "mülki proses" anlayışı ilə "mülki məhkəmə icraatı" anlayışları eyniləşdirilir, hətta sinonim kimi də qəbul edilir. Hüquq ədəbiyyatlarının və qanunvericiliyin müqayisəli şəkildə tədqiqi onu söyləməyə əsas verir ki, bu anlayışlar məzmun və mahiyyətinə görə bir-birlərindən fərqlənirlər. Məsələ burasındadır ki, mülki proses geniş anlayışdır, əksinə "mülki məhkəmə icraatı" anlayışı isə "mülki proses" anlayışı ilə müqayisədə daha dar əhatəyə malikdir və mülki xarakterli mübahisələrin yalnız məhkəmə gedişatında baxılması və yekun qərar çıxarılmasını əhatə edir, yəni sırf məhkəmə gedişatında mülki mübahisəyə baxılması və həllini ehtiva edir.

3. Nümayəndəlik institutu hüquqların real və tam həyata keçməsinin və hüququn subyektləri tərəfindən vəzifələrin icra edilməsinin əhəmiyyətli zəmanətlərindən biri kimi çıxış edir. Nümayəndəlik subyektiv hüquqların və vəzifələrin əldə edilməsi və realizəsi imkanlarını genişləndirir və yüngülləşdirir, fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli vətəndaşlar üçün isə müvafiq hüquq münasibətlərində iştirakın bəzən yeganə əsası qismində çıxış edir.

4. Mülki prosesdə nümayəndəlik institutu öz tarixi inkişaf tendensiyasına malik olan və özündə maddi və prosessual hüquq normalarını təcəssüm etdirən kompleks hüquq institutudur. Bu hüquq institutu subyektin obyektiv səbəblərdən müstəqil şəkildə məhkəmədə çıxış edə bilməməsi səbəblərindən meydana çıxmışdır. Prosessual nümayəndəliyin inkişaf tendensiyaları o haqda nəticə çıxarmağa imkan verir ki, nümayəndəlik institutu ona olan tələbatın artması səbəbindən daim yüksələn xətlə inkişaf etmişdir.

5. Mülki prosesdə nümayəndəlik geniş anlayışdır və hüquqi və fiziki şəxslərin mülki hüquq və azadlıqlarının müdafiəsi və yaxud da pozulduğu halda bərpası məqsədilə fəaliyyət qabiliyyətli şəxslər tərəfindən göstərilən hüquqi yardımdır. Mülki prosesdə nümayəndəlik institutunun əsas məqsədi fiziki və hüquqi şəxslərin hüquq və qanuni maraqlarının tam şəkildə təmin edilməsinə nail olmaqdır.

6. Nümayəndəlik institutu AR Konstitusiyasında təsbit olunan insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi mexanizminin əsas ünsürü qismində çıxış etməklə hüquqi yardım fəaliyyətini özündə təcəssüm etdirir. Hüquqi yardım almaq bir qayda olaraq şəxsi hüquq və azadlıqların prosessual təminatlarını ehtiva etməklə özündə hüquq və maraqların müdafiəsində ifadə olunan prosessual-hüquqi cəhətləri birləşdirir. Bu baxımdan hüquqi yardım almaq hüququ AR Konstitusiyasında təsbit olunmuş digər prosessual xarakterli hüquqlarla qarşılıqlı əlaqədədir və onların həyata keçirilməsini təmin edir.

7. Mülki prosesdə nümayəndəliyin spesifik xüsusiyyətlərindən biri ondan ibarətdir ki, nümayəndələr təmsil edilənlərin xeyrinə hərəkət edərək, mülki məhkəmə icraatında işə baxılmasında bəzən onları tamamilə əvəz edirlər. Bununla yanaşı, mülki prosesdə iştirak edən nümayəndə təmsil edilən adından müvafiq səlahiyyətlərin realizəsi üzrə fəaliyyəti həyata keçirməklə iki növə bölünür: məcburi (qanuni) və könüllü nümayəndəlik. Birinci halda (qanuni nümayəndəlikdə) nümayəndəlik təmsil edilənin iradəsindən asılı olmayaraq yaranır, lakin ikincidə isə təmsil edilənin iradəsi əsasdır.

8. Vəkillərin mülki prosesdə fəaliyyəti üzrə hüquqi statusu mülki prosessual qanunvericilikdə müəyyən olunmuşdur. Vəkil müdafiə etdiyi şəxsin ona verdiyi prosessual səlahiyyətləri həyata keçirə bilər. Bu səlahiyyətlər ümumi və xüsusi olmaqla iki qrupa ayrılır. Ümumi səlahiyyətlər vəkilin həyata keçirdiyi ümumi prosessual hərəkətlər kompleksini əhatə etdiyindən onların vəkilə verilən etibarnamədə göstərilməsinə ehtiyac yoxdur. Xüsusi səlahiyyətlərə gəldikdə isə, qeyd etmək lazımdır ki, bu səlahiyyətlər vəkilə verilən etibarnamədə mütləq qeyd edilməlidir, çünki bəzi prosessual hərəkətlərin həyata keçirilməsi prosessual hüquq və vəzifələrin meydana çıxmasına, dəyişməsinə və dayandırılmasına yönəlmişdir.

9. Prosessual nümayəndəliyin inkişafının beynəlxalq hüquqi, konstitusiya, maddi-hüquqi və prosessual-hüquqi ilkin şərtləri fərqləndirilir. Bu şərtlərə aid edilir: nümayəndəlik institutuna beynəlxalq hüquq tərəfindən hamının qanun qarşısında bərabərliyini təmin edən və məhkəməyə çıxış hüququ kimi baxılması. Beynəlxalq hüquqi aktlarda pulsuz hüquqi yardıma xüsusi diqqətin göstərilməsi və müstəqil hüquq peşəsinin mövcudluğu ixtisaslaşmış hüquqi yardımın lazımi səviyyədə göstərməsinin zəmanətidir. Məhkəmə müdafiəsi hüququ və yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsinə AR Konstitusiyası ilə zəmanət verilir və bu hüquqlar məhdudlaşdırılmır. Bundan başqa, hüququn ənənəvi sahələrinin təkmilləşməsi və yenilərinin formalaşması, çəkişmə prinsipinin aktivləşməsi kimi şərtlər də bu hüquq institutunun hazırkı inkişafında müəyyənedici rol oynayır.

10. Peşəkar nümayəndələrin, konkret olaraq vəkillərin ixtisaslaşması bütövlükdə nümayəndəlik institutunun təkmilləşməsi baxımından vacib əhəmiyyətli məsələdir. Qeyd etmək lazımdır ki, bu təcrübə artıq Respublikamızda qismən də olsa hakimlərə münasibətdə tətbiq olunmuşdur. Belə ki, apellyasiya və kassasiya instansiyalarında ayrıca məhkəmə kollegiyaları fəaliyyət göstərir, 2019-cu ildən inzibati və kommersiya məhkəmələri də ayrılımışdır. Bir vacib məqamı da qeyd edim ki, hazırda ölkəmizdə 2200-dən çox vəkil fəaliyyət göstərir,

hakimlərin sayı isə 600-dən azdır. Bu səbəbdən vəkillər arasında da hüquq sahələri üzrə ixtisaslaşmanın aparılması həm nümayəndəlik institutunun effektivliyinin artmasını, həmçinin ümumilikdə məhkəmə-hüquq sisteminin və insan hüquq və azadlıqlarının səmərəli şəkildə müdafiəsinə əhəmiyyətli şəkildə töhfə vermiş olardı.

**Tədqiqatın elmi yeniliyi** onunla əlaqələndirilməlidir ki, hazırkı tədqiqat AR hüquq elmində mülki prosesdə nümayəndəlik institutunun nəzəri və praktiki problemləri ilə bağlı dissertasiya səviyyəsində ilk kompleks tədqiqat işidir. Dissertasiyada mülki prosesdə nümayəndəlik institutunun hərtərəfli, müqayisəli təhlili aparılmış və bu institutun təkmilləşdirilməsi üzrə konkret təkliflər irəli sürülmüşdür.

Elmi yeniliyin digər bir tərəfi ondan ibarətdir ki, tədqiqat işi qeyd edilən istiqamətlərdə geniş normativ-hüquqi kompleksin, məhkəmə praktikasının, müxtəlif dövlətlərin milli qanunvericiliyinin və hüquq ədəbiyyatında mövcud fikir müxtəlifliyinin müqayisəli təhlili əsasında aparılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada xülasə edilmiş və əsaslandırılmış nəticələr mülki məhkəmə icraatında nümayəndəliyin nəzəri baxımdan əsaslılığını, dərk edilməsini genişləndirir, bu hüquq institutunun konseptual problemlərini ayırır və mülki prosesin müxtəlif problemlərinin həllində, həmçinin normayaradıcılıq fəaliyyətində istifadə oluna bilər.

Tədqiqat işinin praktiki əhəmiyyəti ilə əlaqədar qeyd edilməlidir ki, məhkəmələrin mülki işlərə baxılması zamanı beynəlxalq normalara istinad etməsi və qanuni qüvvəyə minmiş məhkəmə qərarının effektiv şəkildə icrasına şərait yaradan mexanizmlərin işlənib hazırlanmasını təklif edir. Tədqiqat işindən mülki prosessual hüquq, beynəlxalq mülki prosessual hüquq sahələrində də istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin xüsusi əhəmiyyət kəsb edən hissələri və nəticələri yerli və əcnəbi jurnallarla, müxtəlif istiqamətli konfransların yekunlarında çap edilmişdir.

**Dissertasiyanın yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "Mülki proses və kommersiya hüququ" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, 10 paraqrafı əhatə edən 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Girişi 21822, Əsas məzmunu 165588, Nəticəsi 12716, İstifadə edilmiş ədəbiyyat siyahısı 12779 işarə olmaqla, ümumilikdə 212875 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın elmi işlənmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və tədqiqatın strukturu haqqında məlumat verilir.

**Birinci fəsil "Mülki prosesdə nümayəndəlik institutunun yaranması, anlayışı və hüquq sistemində yeri"** adlanır və üç paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** mülki prosesdə nümayəndəlik institutunun formalaşması və inkişaf tarixi ilə bağlı məsələlər tədqiq edilir.

Digər hüquq institutları kimi, mülki prosesdə nümayəndəlik institutunun da bütün aspektlərini araşdırmaq və təhlil etmək üçün ilk öncə onun tarixi öyrənilməlidir. Mülki prosesdə nümayəndəlik institutunun formalaşmasının qədim tarixi kökləri vardır və bu hüquqi institutun formalaşması müxtəlif ölkələrdə özünəməxsus formada baş vermişdir. Bəzən nümayəndəliyin tarixinin qədim Yunanıstandan, Roma hüququndan, bəzi mənbələrdə isə hətta daha qədim zamanlardan

başlandığı göstərilir. Antik dövrdə nümayəndəlik institutunun formalaşmasına qədər məhkəmə prosesində şəxsən iştirak müəyyən yazılı sənədlərin mövcudluğunu tələb edirdi, hansı ki, həmin sənədlər qanuna və digər hüquq normalarına əsasən tərtib olunmalı idi, bu isə sadə insanlar üçün vəziyyəti bir qədər də mürəkkəbləşdirirdi.

Orta əsr Avropa dövlətlərində məhkəmə nümayəndəliyi institutu fərqli templə inkişaf edirdi.

Müasir dövrdə Avropa ölkələrində və ABŞ-da məhkəmə nümayəndəliyinin, xüsusilə də vəkilliyinin əsas tendensiyası onun beynəlmiləlləşməsi prosesi ilə bağlıdır. Bu proses, ilk növbədə, müasir dünyada baş verən qloballaşma proseslərinin nəticəsi olaraq meydana çıxmışdır.

**İkinci paraqrafda** mülki prosesdə nümayəndəlik institutunun anlayışı və subyektləri ilə bağlı məsələlər tədqiq edilir. Mülki prosesdə nümayəndəlik institutunun anlayışı ilə bağlı məsələləri tədqiq edərkən ümumilikdə nümayəndəliyin mahiyyəti, mülki prosesdə nümayəndənin iştirakının zəruriliyi, müxtəlif hüquq ədəbiyyatlarında mövcud olan nəzəri fikirlərin, doktrinaların araşdırılması, müqayisəli şəkildə təhlili məqsədəuyğun hesab edilir.

Köln Universitetinin professoru Mattias Kilian qeyd edir ki, hüquqi nümayəndəlik müxtəlif işlər üzrə məhkəmə prosesində hər hansı bir şəxsə peşəkar hüquqşünas (lisenziyalı peşəkar hüquqşünas, barrister, solisitor, vəkil və s.) tərəfindən təmsilçiliyin göstərilməsidir. Müəllif eyni zamanda məcburi (mandatlı) nümayəndəliyi də fərqləndirir. Bu növ nümayəndəlikdə təmsil olunan şəxsin məhkəmədə eşidilmək və prosessual hüquqlardan istifadə etmək hüququ var[6].

İnkişaf etmiş və zəngin hüquq təcrübəsinə malik Xarici ölkələrin qanunvericiliyinin təhlili və müasir dövrdə mülki işlər üzrə məhkəmə təcrübəsindəki problemlərin təhlili Azərbaycan mülki prosessual

[6] Matthias, K. Representation in Court Proceedings. Comparative Aspects and Empirical Findings // CCBE / PECO / IBA, –Kiev: – 5-6 june, – 2015, – p. 3.

qanunvericiliyində nümayəndəlik institutu ilə bağlı müəyyən dəyişikliklərin həyata keçirilməsi haqqında fikir söyləməyə əsas verir.

**Üçüncü paraqrafda** mülki prosesdə nümayəndəlik institutunun müxtəlif hüquq sistemlərində özünəməxsus yeri: roman-german və anqlosakson hüquq sisteminin müqayisəli təhlili üzrə məsələlər tədqiq olunur. Hər bir hüquq sistemi unikaldır, ancaq müqayisəli hüquqşünaslıq onların oxşarlıqlarını və fərqlərini aydınlaşdırıb hüquq sistemlərinin tipologiyasını müəyyən etməyə imkan verir.

Anqlosakson sistemi ölkələrində nümayəndəliyin doktrinal bünövrəsi eyniləşdirmə, identikləşdirmə nəzəriyyəsinə əsaslanır (doctrine of identity). Bu nəzəriyyəyə görə, nümayəndə — müəyyən mənada təmsil edilənin *alter ego*-sudur və təmsil ediləndən səlahiyyətləri alır və bu səlahiyyətlər çərçivəsində hərəkət edir[7].

Roman-german hüquq sistemində mülki prosessual hüquq nümayəndənin hüquqi statusunda ona verilən səlahiyyətlərə əsasən meyarlar müəyyənləşdirir. Bu əsasda nümayəndəlik qanuni və könüllü mövlərə ayrılır. Qanuni nümayəndəlik qanunun göstərişlərindən doğursa, könüllü nümayəndəlik əqdə əsasən yaranır. Bu tendensiya Azərbaycan hüquq sistemi üçün də xarakterikdir.

**İkinci fəsil “Mülki prosesdə nümayəndəlik institutunun növləri və nümayəndələrin hüquqi statusu”** adlanır və üç paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** mülki prosesdə ictimai əsaslarla və təsis aktı üzrə nümayəndəlik tədqiq edilir.

İctimai nümayəndəlik müəyyən edilmiş ictimai birləşmədə vətəndaşın iştirakını və ya ictimai təşkilat tərəfindən (məsələn, istehlakçıların cəmiyyətləriylə) onun maraqlarının təmsil edilməsi imkanına qanunun birbaşa göstərişini nəzərdə tutur. Bu halda təşkilatın nizamnaməsində məhkəmədə həmin təşkilatın öz üzvü adından çıxış

---

[7] Pelichet, M. Rapport sur la loi applicable aux contrats d'intermédiaires // Conférence de la Haye de droit international privé. Actes et documents de la Treizième session. – 5 avril, – 1978, – p. 15.

etmək imkanı nəzərdə tutulur. Təbii ki, təşkilat bilavasitə öz üzvü adından prosesdə çıxış edə bilməz. Prosesdə onun maraqlarının təmsil edilməsi üçün bu işə təşkilatın işçisi cəlb edilə bilər. Bunun üçün təşkilatın rəhbəri tərəfindən verilmiş etibarnamə tələb olunur[8].

İctimai nümayəndəliklə bağlı məsələləri tədqiq edərkən ödənişsiz və ya pulsuz hüquqi yardımla bağlı məsələləri də mütləq qeyd etmək lazımdır. Hüquqi yardım almaq hüququ insan hüquq və azadlıqlarının müdafiəsi nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir.

**İkinci paraqrafda** mülki prosesdə vəkilin fəaliyyəti ilə bağlı problemlər tədqiq olunur.

AR MPM-ə müvafiq olaraq, Respublika ərazisində mülki prosesdə vəkil kimi qanunvericiliklə müəyyən olunmuş qaydada səlahiyyəti təsdiq olunmuş vəkillər iştirak edirlər.

Vəkilin mülki məhkəmə icraatında fəaliyyətinə bir çox xüsusiyyətlər xasdır. Bu xüsusiyyətlər vəkilin təşkilati-hüquqi və prosessual-hüquqi vəziyyəti ilə şərtlənir[9]. Belə xüsusiyyətlər məcmu şəkildə vəkilə xas olan növbəti meyarlarda əks olunur: 1) kifayət qədər bilik və təcrübəyə malik olan peşəkar hüquqşünas kimi mülki prosessual fəaliyyəti həyata keçirir; 2) mülki prosesdə ümumilikdə və konkret iş üzrə öz aparıcı rolunu dəqiqliklə bilir; 3) öz peşəkar məqsəd və vəzifələrinin yerinə yetirilməsi üçün qanunla nəzərdə tutulmuş geniş müdafiə tədbirləri arsenalına malikdir, 4) işin keyfiyyəti üzrə öz məsuliyyətini yaxşı bilir[10].

**Üçüncü paraqrafda** qanuni nümayəndələrin mülki prosesdə iştirakı ilə bağlı məsələləri araşdırılır. AR mülki və mülki prosessual qanunvericiliyi qanuni nümayəndəliyə konkret anlayış verməsə də, qanuni nümayəndələrlə bağlı kifayət qədər normalar təsbit etmişdir. Həmin normalar əsasən AR mülki, mülki prosessual və ailə

---

[8] Krieger, J. The Oxford Companion to Comparative Politics / J.Krieger, C.N. Murphy, – Oxford: Oxford University Press, – 2013, – p. 25.

[9] Невская, М.А. Адвокатура и нотариат. Конспект лекций / М.А.Невская., М.А.Шалагина, – М.: Эксмо, – 2007, – с. 125.

[10] Демидова, Л.А. Адвокатура в России. Учебник / Л.А.Демидова. – М.: Юридический Дом Юстицинформ, – 2006, – с. 88.

məcəllələrində yer almışdır. Adıçəkilən məcəllələrin müvafiq normalarının təhlili qanuni nümayəndəlik haqqında belə bir ümumi fikir söyləməyə əsas verir - fəaliyyət qabiliyyəti olmayan, tam fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən fiziki şəxslərin hüquqlarını və qanunla qorunan mənafelərinin məhkəmədə təmsilçiliyi mülki prosesdə qanuni nümayəndəlik kimi qəbul edilə bilər.

Qanuni nümayəndəliklə bağlı məsələləri tədqiq edərkən ən çox rast gəlinən anlayışlar arasında qəyyumluq və himayəçilik xüsusilə qeyd edilməlidir. Hüquqların müdafiəsi və yetkinlik yaşına çatmayanın qanuni maraqları üçün mülki prosesdə qanuni nümayəndənin iştirakı məhkəmə nümayəndəliyinin dar çərçivələriylə məhdudlaşdırılmır.

**Üçüncü fəsil "AR-in mülki prosesində nümayəndəlik institutunun inkişaf tendensiyası: nəzəri və praktiki problemlər"** adlanır və dörd paraqrafı özündə birləşdirir.

**Birinci paraqrafda** AR-in mülki prosessual qanunvericiliyinin sistemi ilə bağlı məsələləri araşdırılır.

Mülki prosessual qanunvericiliyin sistemi mülki prosessual hüququn mənbələri ilə əlaqəlidir. AR Konstitusiyasının 48-ci maddəsinə müvafiq olaraq AR MPM-in 1.1-ci maddəsində təsbit edildiyi kimi, mülki prosessual qanunvericiliyin sisteminə, mülki prosessual hüququn normalarını özündə əks etdirən hüquqi aktlar, Konstitusiya, AR MPM, qanunlar, AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr daxildir.

Mülki prosessual hüquq münasibətlərinin tənzimlənməsi sferasında əsas normativ-hüquqi akt 28 dekabr 1999-cu il tarixli, 780-IQ nömrəli AR Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında AR Qanunu ilə təsdiq edilmiş AR MPM-dir. Mülki proses nəzəriyyəsində mülki prosessual məcəllə adətən mülki prosessual qanun da adlandırılır.

Mülki proses dövlətdaxili mülki prosessual qanunvericiliyinin və beynəlxalq hüquq normalarının birgə tənzimetmə predmetini təşkil edir. Mülki proses müxtəlif və çoxşaxəli hərəkətləri əhatə edir, lakin onların

hər biri yekun məqsədə - konkret mülki iş üzrə ədalət mühakiməsinin həyata keçirilməsinə xidmət edir.

**İkinci paraqrafda** AR-də nümayəndəlik institutunun yaranması: tarixi-hüquqi baxış ilə bağlı məsələlər tədqiq edilir.

Qədim tarixi köklərə malik olan Azərbaycanda nümayəndəlik institutunun formalaşması və inkişafı özünəməxsusluğu ilə seçilir. Qədim Azərbaycanda məhkəmə prosesi açıq çəkişmə xarakteri daşıyırdı.

1918-ci il may ayının 28-də elan edilmiş Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsində isə vətəndaşların hüquqi yardım almaq hüququ ilə bağlı hər hansı norma təsbit olunmamışdır.

Azərbaycan SSR-nin 13 noyabr 1980-ci il tarixli Qanunu ilə təsdiq olunmuş "Azərbaycan SSR vəkilliyi haqqında" Əsasnamə 9 fəsil və 30 maddədən ibarət olmaqla, həmin dövr üçün vəkillik fəaliyyətinin hüquqi tənzimlənməsinin sahəvi normativ bazası hesab olunurdu.

Azərbaycan müstəqillik əldə etdikdən sonra vəkillik fəaliyyətinin tənzimlənməsi ilə bağlı məsələlər bir müddət Sovet hüquq normaları və Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyası vasitəsilə həyata keçirilmişdir.

**Üçüncü paraqrafda** AR-in mülki prosesində nümayəndəlik institutunun maddi və prosessual hüquqi tərəfləri: nəzəri problemlər bağlı məsələlər araşdırılır.

AR mülki prosesində məhkəmə nümayəndəliyi institutunun əsas məqsədlərinə növbəti məsələləri aid etmək daha məqsədəuyğun hesab edilir: 1) məhkəmə nümayəndəsi xidmətini göstərən şəxslərin fəaliyyətinin nizama salınması; 2) bilavasitə məhkəmə nümayəndəsinin fəaliyyətinin tənzimləməsi (həm vəkalət verənlə, həm məhkəmə ilə, həm də başqa şəxslərlə qarşılıqlı münasibətlərdə).

Müasir Azərbaycan mülki prosesində məhkəmə nümayəndəliyi geniş yayılmış anlayışdır, bundan başqa, qüvvədə olan mülki prosessual qanunvericiliyin normalarıyla əsası qoyulmuş və elan edilmiş mürəkkəb, hərtərəfli hüquqi institutdur, hansının ki məqsədi Azərbaycan hüququnun əsas prinsiplərinin reallaşdırılmasını təmin etməkdir. Əsas prinsiplər

dedikdə, burada, ilk öncə ədalətli məhkəmə araşdırması, hər kəsin hüquqi yardım almaq hüququ; vəkalət verənin maraqlarının müdafiəsinin təminatı; qanunçuluq prinsiplərinin effektiv şəkildə realizəsindən gedir.

**Dördüncü paraqrafda** AR-in mülki prosesində nümayəndəliyin həyata keçirilməsi: praktiki problemlər ilə bağlı məsələlər araşdırılır. Bu gün mülki prosessual hüquq sahəsində həll edilməyən bir sıra kifayət qədər ciddi məsələlər mövcuddur.

Birincisi, təcrübə göstərir ki, peşəkar hüquqşünas kadrlarının hazırlığının müasir sistemi faktiki olaraq prosessual hüquq sahəsində "yaxşı" mütəxəssislərin cəmiyyətə təqdim edilməsində bacarıqlı deyil.

İkincisi, hesab edirik ki, bu sahədə mövcud problemlərdən biri məhkəmə nümayəndəliyi xidmətlərini göstərilməsi üzrə fəaliyyəti həyata keçirən şəxslərin (vəkillər istisna olmaqla) kifayət qədər bilik və bacarıqlarının olmaması ilə bağlıdır.

Üçüncüsü, nümayəndəlik institutunun növbəti aktual problemi olaraq nümayəndələrin sui-istifadə hallarına yol verməsi qeyd edilməlidir.

**Dissertasiyanın nəticə hissəsində** tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və nəticələri ümumi şəkildə aşağıdakı kimi ifadə etmək olar:

1. Dissertasiya tədqiqatında müasir mərhələdə prosessual nümayəndəlik fəaliyyətinin ayrılması üçün ən əhəmiyyətli meyarlar aşkar edilmişdir. Belə meyarlar arasında göstərilən xidmətlərin peşəkarlığı meyarı xüsusilə qeyd edilməlidir, məhz peşəkarlıq meyarına görə mülki prosesdə nümayəndəlik fəaliyyətini peşəkar və qeyri-peşəkar əsasda fərqləndirmək olar. Məsələn, hazırda Respublikamızda vəkil tərəfindən göstərilən xidmət peşəkar, qanuni nümayəndənin və ya yaxın qohumun göstərdiyi nümayəndəlik isə qeyri-peşəkar hesab olunur. Sübut edilmişdir ki, təcrübədə göstərilən mülki prosessual nümayəndəlik fəaliyyətinin xarakterindən asılı olaraq, konkret məhkəmə nümayəndəsinin səlahiyyətlərinin həcmini daha aydın müəyyən etmək olar. Belə ki, peşəkar məhkəmə nümayəndəsi (məsələn, vəkil), mülki prosesdə nümayəndəlik fəaliyyətini realizə edərkən daha

çox məsuliyyət daşımalıdır. Paralel olaraq, qeyd edək ki, mülki prosessual nümayəndəlik edən vəkilin digər nümayəndədən fərqli olaraq baxılan işə daha ciddi, peşəkar və məsuliyyətli yanaşması mümkün hesab olunur. Nümayəndənin peşəkarlığı hüquqları müdafiə olunan şəxslərin bilavasitə xeyrinə işləyən amildir.

2. Nümayəndəlik mülki prosesin sistemyaradıcı elementidir. Məhz nümayəndənin vəziyyətindən bir çox hallarda mülki prosesin bu və ya digər sistemə aid edilməsi asılıdır. Prosessual nümayəndəni işdə iştirak edən şəxslərə aid etmək lazımdır, çünki o prosesdə müstəqil hüquqi marağa malikdir, öz iradəsini ifadə edir və müəyyən hüquqlar və vəzifələrlə təmin olunmuşdur. Mülki prosesdə iştirak edən nümayəndənin və vəkalət verənin məsuliyyətinin müəyyən edilməsi fərdi qaydada həyata keçirilməli, analoji olaraq təqsir, niyyət və səbəb-nəticə əlaqəsi müəyyən edilməlidir. Nümayəndənin məsuliyyətə cəlb edilməsi vəkalət verənin də məsuliyyətinə səbəb olmamalı və əksinə.

3. İctimai münasibətlərin yüksək inkişaf etməsi, həmçinin ədalət mühakiməsinin həyata keçirilməsi şəraitində tədqiq edilən fəaliyyətin tənzimlənməsi sahəsində daha konkret, differensiasiyalaşmış yanaşmalar tələb olunur. Təklif edirik ki, belə bir vəziyyətdə nümayəndəlik institutuna əsas yanaşma meyarı kimi peşəkarlıq meyarı əsas götürülməlidir. Düzdür, 2018-ci ilin yanvarın 1-dən məhkəmələrdə nümayəndəlik fəaliyyətini əsasən vəkillər həyata keçirsə də, hüquqi şəxslərin, yaxın qohumların məhkəmədə nümayəndəlik fəaliyyətinə toxunulmamışdır. Bu isə qeyri-peşəkarların məhkəmə prosesinə yenidən daxil olmasına şərait yaradır. Bu səbəbdən təklif edirik ki, məhkəmə proseslərində yalnız prosessual sferada bilik və bacarığı olan şəxslər iştirak etməlidir. Belə olduqda vətəndaşların da, öz hüquqlarının qorunmasında, pozulduğu halda bərpası məsələsində əminlikləri daha çox olar. Eyni zamanda, çəkişmə prinsipinin də effektiv şəkildə realizəsinə imkan yaranır.

4. Maddi baxımdan təminatı aşağı olanlar üçün mülki məhkəmə prosesində ödənişsiz hüquqi yardımın təmin edilməsi

məqsədilə Ödənişsiz hüquqi yardım haqqında Qanun layihəsinin işlənib hazırlanması və qəbul edilməsi məqsədəuyğundur. Eyni zamanda, bu istiqamətdə təşkilati işlərin əlaqələndirilməsi və yeni institusional mexanizmlərin də işlənib hazırlanmasını məqsədəuyğun hesab edirik.

5. AR-in hazırda qüvvədə olan mülki prosessual qanunvericiliyinə görə, bir qədər də konkret desək AR MPM-in 67-ci maddəsinə görə kassasiya və əlavə kassasiya qaydasında, habelə məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxıldıqda işdə iştirak edən şəxslər məhkəmə iclaslarında yalnız vəkillə birgə iştirak edirlər. Bu maddənin məzmunun və mahiyyətindən, belə qənaətə gəlmək olur ki, vəkillə təmsil oluna bilməyən olmayan şəxs AR Ali Məhkəməsinə müraciət edə, həmçinin məhkəmədə də sərbəst şəkildə çıxış edə bilməz. Bizim fikrimizcə, qeyd edilən norma AR Konstitusiyasının 60.1-ci və 61.1-ci maddəsinə uyğun deyil. Belə ki, AR MPM-in adıçəkilən 67-ci maddəsi konstitusion hüquqi əsaslara malik "Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı" (md. 60) və "Hüquqi yardım almaq hüququ" (md. 61) ilə ziddiyyət təşkil etməklə, həmin hüquqların effektiv şəkildə realizəsinə də maneə yaradır. Bununla yanaşı, qeyd edilən hüquqlar AR-in tərəfdar çıxdığı beynəlxalq hüquqi aktlarda da hər kəs üçün təmin edilmişdir. Ona görə də, AR MPM-in müvafiq maddəsində düzəliş edilməsini təklif edirik.

6. AR-in qüvvədə olan mülki prosessual qanunvericiliyi, məhkəmə nümayəndəsinə prosessual səlahiyyətlərin verilməsinin geniş imkanını nəzərdə tutsa da, bu tip məsələlərdə təmsil edilənin müdafiəsi mexanizmi ilə bağlı zəruri normaları təsbit etmir. Burada söhbət nümayəndəlik fəaliyyəti ilə məşğul olan şəxslərin (vəkil istisna olmaqla) bilik və bacarıqlarının hansı səviyyədə olmasından gedir. Zəruri ixtisası, bilik və bacarığı olmayan nümayəndənin işdə iştirakı yalnız vəkalət verənin özü üçün əlverişsiz nəticələr doğurmur, həm də bütövlükdə ədalət mühakiməsi prosesinə mənfi təsir edir, konkret işə baxılması müddətlərini uzatmaqla, yaxud başqa

üsulla AR mülki prosesində işə baxılmasının ümumi məqsədlərinin nailiyyətini çətinləşdirir.

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Mülki prosesdə nümayəndəlik institutunun formalaşması və inkişaf tarixi // Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət quruculuğu" mövzusunda beynəlxalq elmi-praktiki konfrans, – Bakı: – 2016, – s. 267-272.
2. Значение представительства в гражданском процессе // Матеріали VII міжнародної науково-практичної конференції. безпека людини в умовах глобалізації: сучасні правові парадигми, том 2, – Київ: – 24 лютого, – 2017, – с. 30-32.
3. Qanuni nümayəndələrin mülki prosesdə iştirakı // – Bakı: Nəqliyyat hüququ. Elmi-nəzəri, təcrübi jurnal, – 5 dekabr 2017. № 3, – s. 187-193.
4. Исторические аспекты возникновения и развития института судебного представительства // – Київ: Наука і првоохорона, – 5 грудень 2017. № 4 (38), – с. 265-271.
5. Классификация института судебного представительства в гражданском процессе // Матеріали VIII міжнародної науково-практичної конференції. сучасна університетська правова освіта і наука , том 2, – Київ: – 23 лютого, – 2018, – с. 17-19.
6. Mülki prosesdə nümayəndəlik institutunun anlayışı: nəzəri-hüquqi təhlil // – Bakı: Qanun, – 2018. № 05 (283), – s. 51-55.
7. Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyinin sistemi // – Bakı: Nəqliyyat hüququ. Elmi-nəzəri, təcrübi jurnal, – 2018. № 1, – s. 166-172.
8. Mülki prosesdə nümayəndəlik institutunun müxtəlif hüquq sistemlərində yeri // – Bakı: Qanun, – 2018. № 06 (284), – s. 53-57.

9. Mülki prosesdə hüquqi yardım göstərilməsi nümayəndəlik institutunun əsas vəzifəsi kimi // – Bakı: Polis Akademiyasının Elmi Xəbərləri, – 2018. № 3-4, – s. 72-77.

10. Mülki prosesdə nümayəndəlik institutunun inkişaf tendensiyası: müqayisəli hüquqi təhlil // – Bakı: Azərbaycan Vəkili Jurnalı, – 2019. № 17, – s. 11-15.

11. Некоторые вопросы представительства в гражданском процессе // Матерıали IX міжнародної науково-практичної конференції. Юриспруденція в сучасному ıнформаційному просторı. том 2, – Київ: – 1 березня, – 2019, – с. 17-20.

12. The institution of representation in civil proceedings: diversity of doctrinal views // – Baku: Beynəlxalq Hüquq və İnteqrasiya Problemləri, – 2020. № 3 (61), – p. 49-53.

13. Mülki prosesdə nümayəndəlik institutunun konseptual problemləri // – Bakı: Azərbaycan Hüquq Jurnalı, – 2021. № 1, – s. 33-40.

14. Mülki prosesdə nümayəndəlik institutunun inkişaf tendensiyası: müqayisəli-hüquqi təhlil // – Bakı: Azərbaycan Prokuroru Jurnalı, – 2021. – s. 65-75.

15. Развитие института судебного представительства в античном мире // Матерıали VII міжнародної науково-практичної конференції. безпека людини в умовах глобалізації: сучасні правові парадигми, том 2, – Київ: – 31 березня, – 2021, – с. 30-32.

16. İnzibati xətalar üzrə məhkəmə prosesində vəkilin iştirakı // İnzibati Hüquq və inzibati Məhkəmə Beynəlxalq Simpoziumu. ISALAJ-2021. – İstanbul: – 24-26 may, – 2021, – s. 402-406.

17. Mülki prosesdə nümayəndəlik institutunun anlayışı və subyektləri // XXI century, new challenges and modern development tendencıes of law. Internatıonal conference, – Bakı: – 21-22 dekabr, – 2022, – s. 588-591.

18. Mülki prosesdə nümayəndəlik institutunun mahiyyəti: nəzəri yanaşmalar və normativ təsbit // – Bakı: Azərbaycan Vəkili. Elmi-praktik, hüquq jurnalı, 2023. № 1(22), – s. 25-30.

Dissertasiyanın müdafiəsi "29" "fevral" 2024-cü il tarixində saat "14.30" Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən BFD 2.44 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1148, Bakı ş., Zahid Xəlilov-33. I korpus, auditoriya 002.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "24" "yanvar" 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:

Kağızın formatı:

Həcm:

Tiraj: